AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 151-163
https://doi.org/10.59849/2664-5432.2026.2.151

Rəxşanə BABAZADƏ*

"YÜZ HƏDİS VƏ YÜZ HEKAYƏ" ƏSƏRİNİN QRAFİK VƏ ORFOQRAFİK XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Əlyazma nüsxələrinin imlasının öyrənilməsi dil tarixi üçün çox əhəmiyyətlidir. Çünki əlyazmalarının imla xüsusiyyətləri müəllifin öz dilindən fərqli olsa da, müəyyən dövr, müəyyən ərazi və sahə üçün səciyyəvi olur, o dövrün dil və imla xüsusiyyətlərini öyrənmək üçün faktik material verir. Əsərin əlyazması qrafik və orfoqrafik xüsusiyyətləri baxımından olduqca zəngin və maraqlı mənbədir. Bu araşdırmada tədqiq etdiyimiz nüsxənin səciyyəvi və diqqət çəkən paleoqrafik xüsusiyyətlərindən bəhs edəcəyik. Azərbaycan dili tarixi üçün böyük əhəmiyyətə malik olan bu yazılı abidənin hərtərəfli öyrənilməsi orta əsrlərdə yazılı ədəbi dilin formalaşması problemlərinin həllində mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: Zərir, hədis, hekayə, qrafika, orfoqrafiya, paleoqrafiya.

Ərzurumlu Mustafa Zəririn "Yüz hədis və yüz hekayə" əsəri Kərdərli Mahmud Əlinin "Nəhcül-fəradis" (1360) əsərindən sonra türkcə yazılmış ikinci, yüz hədis toplusu kimi isə ilk əsər [Yıldırım – Yılmaz, 2005: 44; 46], bəzi müəlliflərə görə isə, "Nəhcül-fəradis" və "Behcətül-hədayiq"dən sonra türkcə yazılmış üçüncü hədis kitabı sayılır [Özkan, 2011: 32; Yavuz, 2011: 50].

"İslam dininin Yaxın və Orta Şərqdə yayılmasından sonra bu dinin əsas daşıyıcıları olan ərəblər, farslar və türklər arasında istər ictimai-siyasi, istərsə də ədəbi-mədəni əlaqələr geniş vüsət almış və bu əlaqələrin məntiqi nəticəsi olaraq bütün müsəlman Şərqində, o sıradan Azərbaycanda tərcümə sənəti bir zərurət olaraq meydana çıxmışdır" [Nağısoylu: 2011, s.3]. "Qeyd etmək lazımdır ki, klassik tərcümə sənəti bir çox səciyyəvi xüsusiyyətləri ilə çağdaş tərcümələrdən köklü surətdə fərqlənir. Məhz buna görə də orta əsrlərin tərcümə ədəbiyyatı nümunələrinə çağdaş dövrün yox, məhz yarandığı dövrün tələbləri, ənənə və xüsusiyyətləri baxımından yanaşmaq məqsədəuyğun və düzgün sayıla bilər" [Nağısoylu: 2011, s.15].

"Əlyazma kitablarının paleoqrafik və orfoqrafik xüsusiyyətlərinin araşdırılması yazı tarixi və onun qrafik formalarının inkişaf qanunauyğunluqlarını öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bununla bərabər, əlyazma abidələrinin paleoqrafik və orfoqrafik xüsusiyyətlərinin öyrənilməsi orta əsr mətnlərini oxumaq, köçürülmə tarixi göstərilməmiş əlyazmanın tarixini, yazıldığı və ya köçürüldüyü yeri müəyyənləşdirmək üçün də çox zəruridir" [Şərifova: 2012, s.26].

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim dillər və mədəniyyətlər şöbəsi, böyük elmi işçi.

Əlyazmanın araşdırma işində əsas götürdüyümüz "İzmir" nüsxəsində, ümumiyyətlə, sözlərin buraxıldığını tez-tez müşahidə edirik. Əlyazma aydın, səliqəli xətlə yazılmasına baxmayaraq, burada xeyli imla xətaları da vardır; sükun əvəzinə əksərən, zəmmə, az hallarda fəthə; fəthə əvəzinə kəsrə, yaxud kəsrə əvəzinə fəthə yazılması; iki cür oxuna bilən sözlərin eyni vaxtda iki hərəkə ilə verilməsi (məsələn, degül / degil); hərflərin nöqtələnməsində, sağır nunun yazılmasında yol verilən nöqsanlar və s. kimi hallar müşahidə edirik. Bəzi yerlərdə cümlələr yarım qalır, hekayə, fikir tamamlanmır. Bəzən də eyni cümlələrin təkrarlandığını görürük. Nüsxədəki imla və qrafika müxtəlifliyi, vahid orfoqrafiya qaydalarına əməl olunmaması həmin əlyazmasının ya keçid dövrünə aidliyini, ya da başqa dövrlərdə yazılmış nüsxələrdən köçürülmüş ola biləcəyini də düşündürür.

"Canlı bir varlıq olaraq qəbul edilən dil, davamlı bir dəyişim içindədir. Bu dəyişim, dilin bütün ünsürlərini əhatə edir... İmlada görülən dəyişmələrin bir qismi, əlifba dəyişiklikləri ilə bağlıdır. Hər əsərin imlası, istinsax edildiyi dövrə aid bilgilər də sunar" [Sarı: 2016, s.13-14].

"Ərəb qrafikası əsasında yaradılmış hərəkəli türk abidələrinin əhəmiyyətini dönə-dönə qeyd edən N.K. Dimitriyev bu tip əlyazmalarına qarşı laqeyd münasibəti və diqqətsizliyi ciddi metodoloji səhv sayır. Çünki hərəkəli abidələr bir qayda olaraq peşəkar xəttat və nasixlər tərəfindən yazıldığı üçün dövrün yazı xüsusiyyətləri, xətt və imla ənənəsi bu əlyazmalarında öz əksini tapır. Bu isə öz növbəsində həmin dövrün imlası haqqında mülahizə yürüdüb nəticə çıxarmağa müəyyən dərəcədə kömək edir" [Qəhrəmanov: 1970, s.19].

Əlyazmada ərəb mənşəli sözlər, adətən, ərəb dili imlasının tələblərinə uyğun şəkildə yazılmışdır. Məsələn, məlumdur ki, türk dillərində ğ hərfi və ya səsi ilə başlayan sözlər yoxdur, amma belə sözlər ərəb dilində çoxdur və bir çoxu dilimizə keçmişdir. Bunlar dilimizin qanunlarına uyğunlaşmış, ğ səsi q ilə əvəz edilmişdir. Buna baxmayaraq, əlyazmada əslinə sadiq qalınmış, belə sözlər غ (ğayn) hərfilə verilmişdir: *ğayət, ğaib, ğalib, ğafil, ğəmmaz, ğərəz, ğərib, ğərq, ğənimət, ğəza, ğəzəb, ğəflət, ğeyri, ğeybət, güssə* (*güssəlü, güssələnmək*)*, ğüsul*.

Lakin bəzən sözlərin türk dilinin səs sisteminə uyğun şəkildə, xalq dilində deyildiyi kimi yazıldığı və ya hərəkələndiyi hallar da müşahidə edilir. Məsələn: qavi̲m قَومْ (< qövm < qaum), vaqi̲t وَقِتْ (< vəqt), sabı̲r / səbi̲r صَبِرْ (< sabr), zulü̲m / zülü̲m ظُلْمْ (< zulm), lütu̲f / lütü̲f لُطُفْ (< lütf), dəfi̲n دَفِنْ (< dəfn), özür / üzür عُذُرْ (< üzr), ömü̲r عُمُرْ (< ömr), şükü̲r شُكُورْ (< şükr), h̲atır حاطِر (< xatir), şaxı̲s شَخِصْ (< şəxs), ili̲m عِلِمْ (< ilm (elm), zikı̲r ذِكِرْ (< zikr), kibi̲r كِبِرْ (< kibr), nəqi̲l / nakil نَقِلْ (< nəql), fisı̲q فِسِقْ (< fisq), xışı̲m خِشِمْ (< xışm), əlbətdə اَلْبَتْدَه (< əlbəttə. Bu söz əlyazmada beş yerdə işlənib, beşində də belə yazılıb) və s. Bu hal xüsusi isimlərdə də görünür: Əbu Bəki̲r (< Əbu Bəkr). Nümunələrdən göründüyü kimi, bu sözlərin bəzisi Türkiyə türkcəsinin tələffüzünə daha çox uyğun gəlir. Bunu *xəstəlik* sözünün *hastalıq* (حَسْتَهْ لِغْدَه hastalığında), *xidmət* (خِدْمَتْ) sözünün *hizmət* (حِذْمَتْ) kimi yazılmasından (burada sanki خ (xa) qrafik işarəsinin nöqtəsi səhvən د (dal) qrafik işarəsinin üzərinə sürüşüb və nəticədə خ x – ح h, د d – ذ z əvəzlənməsi baş

vermişdir) da görürük. Onu da qeyd edim ki, əlyazmada bəzi sözlər də var ki, onların kəsrəli yazılması nə Azərbaycan, nə də Türkiyə türkcəsinə uyğun gəlir (məs., *xəric, xəliq*). Bunu sadəcə imla xətası kimi dəyərləndirmək lazımdır deyə düşünürəm.

Ümumiyyətlə, əsərin dilində sırf Azərbaycan (*yumaq, oğrı, oğurlamaq, ildırım, qonşu, qonşuluq, ər, ata, qoca, qocalıq, əkinçi, issi, çörək, axşam, bərkitmək, toqunmaq, sağaltmaq, polad, divar, nicə, niçəyə, qaçan;* سَوْدُكُوزَه *sevdügü:zə* (sevdiyinizə), دِدُوكُزْ *didügüz* (dediyiniz), دِدُوكُزُكْ *didügüzüŋ (dediyinizin),* اَلُوزْدَنْ *əlü:zdən* (əlinizdən) və b.), yaxud sırf Türkiyə türkcəsində (*tasma, anaxtar, soqaq, köy, omuz, tavuq, əvət, bəlki, gibi, kağıd, hizmət, abdest, qocamaq, nərəyə* və b.) işlənən sözlərin və ya fonetik və semantik variantların varlığı da nüsxənin yazıya alındığı dövrün dil mənzərəsini əks etdirir. Hətta bəzən belə sözlərin və variantların müvazi şəkildə işləndiyini də görürük: *bəli* / *əvət*, e ~ i: *eşitmək* / *işitmək*, *yenə* / *genə* / *yinə* / *ginə*, x ~ q: yo*x*sa, yo*x*sul(lıq) / yo*q*, yo*q*luq, yo*q*dur, x ~ h (ərəb və fars mənşəli sözlərdə): *xəta* / *hata, xəstə / hasta, xoşnud / hoşnud;* -əm / -im (şəxs şəkilçisi): *bənəm / bənim* və s.

"İyirmi"li say birləşmələrində də tələffüzə uyğunluq diqqəti çəkir. Belə ki, *igirminci* sözü kəsrəli mimlə (مِ) yazıldığı halda, birləşmələrdə mimin çox vaxt hərəkəsiz yazıldığını görürük. Bu zaman say birləşmələrini danışıqda olduğu kimi də oxumaq mümkündür. Danışığa uyğunluğun olduğu bəzən mimin sükunla yazılmasından da aydın olur. Məsələn, yigrim birinci, yigrim ikinci, yigrim üçünci, yigrim / yigirim dördünci, yigirim beşinci, yigrim altıncı, yigirim / yegirim yedinci, yigrim səkizinci. Qeyd edim ki, sadəcə üç yerdə mim-ye (مى) ilə yazıldığını görürük: *Yigirmi* (يِكِرمى) *beşinci* hikayət, *Yigirmi* (يِڭْرمى) *toquzuncı* hədis mənası / *Yigirmi* (يِڭْمى) *toquzuncı* hikayət. Maraqlıdır ki, *iyirmi* sözü iki yerdə ilk hecasında e ilə – "yegirmi" və "yegirim" kimi yazılmışdır: *Yegirminci* (يَكِرْمِنْجى) hikayət, *Yegirim* (يَكِرِمْ) *yedinci* hikayət.

Məlumdur ki, adətən, "orfoqrafiya əski yazı şəklini, keçmiş normasını saxlayır, çox vaxt zamanın fonetik-tələffüz gerçəkliyini əks etdirmir. Orfoqrafiya son dərəcə mühafizəkar olur; yazanlar, katiblər, ziyalılar savadlılıq əlaməti kimi əski yazılışı qoruyurlar. Yazanlar camaatın tələffüz etdiyi kimi deyir, ancaq ənənəvi şəkildə yazırdılar…" [Hacıyev: 2012, s.139-140]. Lakin biz bu nüsxədə bu ənənəyə uyulmadığını görürük. Buna əsasən belə qənaətə gəlmək olar ki, əlimizdəki nüsxə tarixinə görə ən yeni nüsxələrdəndir və hissə-hissə, ayrı-ayrı vaxtlarda, başqa-başqa katiblər tərəfindən yazılmışdır və katibi ya katibləri çox da savadlı insanlar olmayıb.

Ərəb qrafikasına məxsus işarələrdən biri də təşdid və ya şəddə ّ işarəsidir. Məlumdur ki, bu işarə ərəb mənşəli sözlərdə samitin üstündə qoyulmaqla qoşalaşmanı göstərir. Əlyazmada ərəb mənşəli sözlərdə bu prinsip əsas etibarilə gözlənilsə də, bəzi təkhecalı sözlərin sonunda təşdid yerinə danışığa uyğun olaraq sükun yazıldığını görürük: حَقّ haqq > حَقْ haq, شَكّ şəkk > شَكْ şək.

Maraqlıdır ki, burada bəzi Azərbaycan-türk mənşəli sözlərdə də bu işarənin qoyulduğuna şahid oluruq ki, bu ənənə bir sıra digər anadilli orta əsr yazılı abidələrində, məsələn, “Kitabi-Dədə Qorqud”, “Hədiqətüs-süəda”, “Mehri və Vəfa” poeması, Rövşəni əsərlərinin əlyazma nüsxələrində də vardır. Çoxluqla, qoşa l olan sözlərdə şəddəli iki lam kimi yazılmışdır. Məsələn, “əlli” (50) sözü demək olar hər yerdə həm qoşa l ilə, həm də bunların üstündə şəddə işarəsi ilə yazılmışdır: اَللّٰی / اَللّٰی , اَللِّنْجي . Sadəcə bir yerdə şəddəsiz yazılıb: اللی [s.104]; bəllü بَلّٰو [s.178];

Təkcə söz kökündə deyil, bəzən l samiti ilə bitən sözlərə l samiti ilə başlayan türk mənşəli şəkilçi artırıldıqda da təşdid işarəsindən istifadə olunub. Məsələn, dil+-lər دِلّٰلَرْ (s.1); yol+-lar+məns.+hal şək. يُولّٰلَرِنْ [s. 1]; yıl+-lıq (9 yerdə: يِلّٰقْ [s.11,12] / يِلّٰلِقْ [s.50,125] / قُولّٰقْ (68x3, 97x2); qul+-luq قُولّٰلُقْ (6 yerdə). Qeyd edim ki, “qulluq” sözü əlyazmada yeddi dəfə işlənib, sadəcə əsərdə işləndiyi ilk nümunədə şəddə ilə deyil, sükun işarəsi ilə yazılıb: Taŋrı *qulluğın* (قُلْلُوغِنْ) yerinə gətürə... [s.48]; qul+-lar قُلّٰلَر / قُولّٰلَرْ (8 yerdə); əl+-lər+mənsub.+hal şək. (*əllərində* اَللَرِنْدَهْ /s.35, 143); əməl+-lər+mənsub./hal şək. (عَمَلّٰلَرْ /s.3, 43, 108, 109, 128); mal+-lar+mənsub. şək. + (i) çün / hal şək. (2 yerdə: *mallariçün* مَالّٰلَرِيجُونْ [s.129], *mallarınuŋ* مَالّٰلَرِينُكْ [s.133]; mal+-la مَالّٰله [s.182-183];

Sadəcə bir variantda yazılanlar da var: *güllərilə* كُلْلَرِيلَه , *bülbüllərin* بُلْبُلْلَرِنْ (s. 1); *köŋül-lərində* كُوكُلْ لَرِنْدَه (s. 10); *halallıq* حَلالْلِقْ (s. 21); *cahillərə* جاهِلْلَرَه (s. 32); *məndillərlə* مَنْدِلْلَرْلَه (s. 35); *köŋüllülərdən* كُوكُلْلُولَرْدَنْ (s. 36); *yoxsullığın* يُخْسُولْلِغِنْ (s. 89); *baxıllıq* بَخِلْلِقْ (s. 118); *yoxsullarına* يُخْسُلْلَرِنَهْ (s. 128); *halallığun* حَلالْلِغُونْ (s. 172);

Türkmənşəli sözlərdə təşdidin işləndiyi ikinci məqam isə qoşa s səsini bildirmək üçündür. Lakin bu zaman qoşa l-dən fərqli olaraq, bir s yazılır və üzərinə şəddə qoyulur. Məsələn, Us (ağıl, şüur, huş)+-sı (mənsub.) اُوصّي // اُصّی: “Ömər bunı eşidicək düşdi, *ussı* getdi, yenə əqli ge[t]di” [s.23]; “*Ussı* dəxi betər gitdi” [s.46];

İssi اِسّي (6 yerdə < 1. is (yiyə, sahib) +-si (mənsub.); 2. isti): 1.“Ey əmanət *issi*, sən bizə oğlıŋı əmanət itdüŋ, sağ-əsən al..” [s.38]; “Anlar ki, mal *issi*dür, savab umub virdilər, Taŋrı-Təala *mallariçun* (مَالّٰلَرِيجُونْ) bu köşkləri virdi..” [s.129]; Ol kişi bir qulına buyurdıki: “Var ol balı *issi*nə ismarla!”,– didi [s.147]; 2. Bu *issi* gündə oruc tutarın, yarın qiyamət gün *issi*ndən qurtıla(m) [s.177];

Maraqlıdır ki, “is” (yiyə, sahib) kökü ilə düzələn iki söz də vardır ki, əlyazmada ya qoşa sin hərfilə, ya da şin hərfilə (ش) yazılmışdır: Dörüt yanuma baqdım, kimsə yoq, *issızlıq* (اِشِزْلِقْ) yerlər, ğüssəlü qaldum. Nagah bir atlu çıqa gəldi [s.49]; Dünyada bunlardan bir kişi qalmadı. Ol [k]öş[k]lər *issuz* (اِسْسُوزْ) qaldı... [s.72]; – Güman ki, birinci nümunədə şəddəli sin hərfi (سّ) bənzərliyə əsasən şin hərfi ilə (ش) yazılıb.

Əlyazmada bəzi orfoqrafik arxaizmlər də diqqət çəkir: *kağıd* كَاغِدْ (3 yerdə), şazlıq شَازْلِقْ (şadlıq), *ümiz* اُميذْ \ اميذْ (“ümizdür ki”). Sonuncu sözün bir yerdə fərqli şəkildə – ز *zey* hərfilə yazıldığını görürük: اُميز (“şol ümizə ki” – o ümidlə ki) [s.175]. Sadəcə bir yerdə, frazeoloji tərkib içində aydın görünmədiyi üçün d ilə

oxumaq olar: “ümidi kəsməsünlər” [s.128] və s. “Bu formaların nüsxədə verilməsi həmin əlyazmasının bəzi hissələrinin daha qədim, şairin (müəllifin –R.B.) yaşadığı dövrdə yazılmış nüsxələrdən köçürülməsini göstərməklə bərabər, onların Azərbaycan ədəbi dilinə ilkin şəkildə keçdiyini də sübut edən dəlillərdəndir” [Qəhrəmanov: 1970, s.25].

Saitlər. Sait səslərin verilməsi üçün əsas vasitə kimi hərəkələr (ـَ fəthə, ـِ kəsrə, ـُ zəmmə) və ا *əlif,* و *vav,* ه *he,* ى/ي *ye* hərfləri işlənmişdir. Habelə, söz əvvəlində əlif hərfi tək başına da hərəkələr vasitəsilə bütün sait səsləri bildirmək üçün işlənmişdir. Lakin bu vasitələr, təbii ki, dilimizin 7-8 yüzil əvvəlki fonetik qanunlarını, səs tərkibini dürüst aydınlaşdırmaqda həlledici rol oynaya bilmir. Ərəb əlifbasının, ərəb qrafikasının xüsusiyyətlərinə əsasən ümumiyyətlə türk dilləri, eləcə də Azərbaycan dili səslərinin keyfiyyəti və məxrəci, bu dildəki sözlərin tələffüzü və həmin tələffüzdə gözə çarpan sabitlik və qanunauyğunluq haqqında irəli sürülən fikir və qənaətlər, şübhəsiz, təxmini xarakter daşıyır. Bir məqamı da qeyd edək ki, ərəb dilinin səs qaydasına uyğun olan qalın samitlə qalın sait tələffüzü prinsipi çox vaxt bizim sözlərin yazılışında da müşahidə edilir.

Möhsün Nağısoylu orta əsr yazılı abidələrini səciyyəvi qrafik-orfoqrafik xüsusiyyətləri baxımından iki qrupa bölür: “1. Ərəb yazı üsuluna daha çox meyilli olan, qısa sait səsləri əsasən hərəkələrlə göstərilmiş əlyazma abidələri; 2. Yazı üsulu daha çox Azərbaycan dilinə uyğunlaşdırılmış və ərəb mətnlərindən fərqli olaraq qısa sait səsləri də hərflərlə göstərilmiş əlyazma kitabları” [Nağıyev: 1994, s.82]. “Yüz hədis və yüz hekayə”də hər iki üsuldan istifadə edilmişdir.

A saiti söz əvvəlində məddəli əliflə (آ) və qısa əliflə (اٰ) göstərildiyi kimi, fəthəli əliflə (أ) də işarələnmişdir. Söz ortasında da adətən fəthə ilə, bəzən də uzatma əlif qrafikası ilə göstərilmişdir. Nümunələr: آدَمْ (Adəm / adam), آرْتُوقْ (artuq), آزَه (aza), آيِتْدِى / اَيِتْدِى (ayıtdı), اَوَاز (avaz), آزَادْ (azad), وَارُكْ (varuŋ), اَرْقَسِنْدَنْ (arqasından), اٰنُوكْ يَرْلِغَمَسِنْ (anuŋ yarlığamasın diləyələr), اٰتَسى (atası), اٰ تَسِنَهْ (atasına), طَبَرْلَرْ (taparlar), يَرَهْ مَزْ (yaramaz) və s. Söz sonunda əvvəlki hərf fəthəli olmaqla, sükunlu ya sükunsuz hey hərfilə (ه) də göstərildiyi hallara rast gəlirik: صُكْرَهْ (soŋra), قَرَهْ (qara), أُولَه / أُولَ (ola).

Ə saiti, əsasən, bir qayda olaraq, fəthə hərəkəsilə işarələnir, ancaq bəzən adətən a sait səsini bildirmək üçün istifadə olunan uzatma əlif qrafik işarəsinin də ə sait səsini bildirdiyini görürük. Bəlkə də, bu, imla xətası deyil, əslində dialekt xüsusiyyətidir və elə a kimi də oxumaq lazımdır: كَلاٰلُومْ (gələ̲lüm / gəlalum), يِيَاِينْ (yiyə̲yin / yiyayın), اِجَاِينْ (içə̲yin / içayın), اِشْلَمَيَاوُزْ (işləməyə̲vüz / işləməyavuz), دِلَارِنْكِهْ (dilə̲rinki / dilarınki), اِتْمَيَاسِنْ (itməyə̲sin / itməyasın), وِرْمَكَا (virməgə̲), كَابِنْ (kə̲bin / kabin) və s. Söz sonunda (bəzən ortasında da) əvvəlki hərfin üzərində fəthə olmaqla bərabər, əlavə olaraq sükunlu və ya sükunsuz hey hərfilə (ـَهْ) göstərilir: نَهْ (nə), نَسْنَه // نَسْنَهْ (nəsnə), خَلِيفَهْ (xəlifə), كِجَهْ (gicə), دِلَيَهْ لَرْ (diləyələr), نَيْلَيَهْ سِنْكى (neyləyəsinki) və s.

I / İ saitlərinin əski əlifba ilə ifadəsi eynidir; düzgün oxunuş sözləri tanımaq və ahəng qanununa uyğunluq sayəsində mümkün olur. Söz əvvəlində ya kəsrəli

əliflə (ا), ya da əlif-ye (ايِ) ilə göstərilmişdir, söz ortasında ya təkcə kəsrə hərəkəsi ilə, ya da *ye* hərfilə işarələnmişdir, söz sonunda da, adətən, nöqtəli və ya nöqtəsiz *ye* hərfilə (ي / ى) göstərilmişdir: بِرْ (bir), قِزْ (qız), دِيوْ (div), قِرْق (qırq), قَتِى (qatı), قِيْدى (qıydı), اَيْتْدِى (ayıtdı), يِكْرِمِ يِلْ (yigirmi yıl), دِدِلَرْ (didilər), دِدِى (didi), اِيدى (idi) vəs.

Bəzən sözlərin axırında da yalnız kəsrədən istifadə edilir: يِكِرْمِ (yigirmi). "Bunu katib xətası kimi deyil, qədim hərəkəli yazı ənənəsi kimi qiymətləndirmək lazımdır" [Qəhrəmanov: 1970, s. 21].

E sait səsini bildirmək üçün də ə və i səslərini göstərən işarələrdən istifadə olunur. Bu sait səslərin düzgün oxunuşu mətndəki sözlərə əsasən müəyyən edilir, tanış sözlər rahatlıqla oxunur. Məsələn: اَوْ ev, بَشْ beş, يَدى yed(d)i, يَتْمِشْ yetmiş (say), اِىْ / اَيْ ey! (nida), اَيُو / اَيبى (eyü / eyi), اَيْلَه / اِيْلَه eylə (əvəzlik), اَيْلَدى (eylədi), اَشِتْدُمْ (eşitdüm), سَوْدى (sevdi), گَيَرْدى (geyərdi), تَزْجَكْ (tezcək), گَجْدى (keçdi), نَيْلَيَهْ سِنْكى (neyləyəsinki), اَيْلُمِزَه (elümizə), اَرْتَيَه (ertəyə) və s.

O / U / Ö / Ü saitləri eyni cür – ya zəmməli əliflə (اُ), ya təkcə vav hərfilə (و), ya da təkcə zəmmə hərəkəsi ilə işarələnmişdir. Dolayısı ilə, eyni bir səsi bildirmək üçün də bu vasitələrdən hər biri işlənə bilir: يُوقْ yoq, اُوغْلانْجُغُمْ oğlancuğum, قُورْقدُقْ qorqduq, قُنْشُو qonşu, بُو bu, بُويُكْ böyük, گُونْ gün, اِلَرُو ilərü, گُورْدُكْ gördük, بُيُورْدى buyurdı, اُويْلَهْ öylə, اُولَشْدُرْدُمْ üləşdürdüm, اُوتُورْدُمْ oturdum, اُوچْ جُورَكْ üç çörək, طُقْسَنْ طُقُوزْ toqsan toqquz, يُوزْ yüz, اُولُو ölü və s. Bunları da mətnə əsasən, sözləri tanıyaraq oxuyuruq. Məsələn, اُولْدى yazısını həm *oldı*, həm də *öldi* kimi, بُولْشْدى yazısını *bölüşdü* yaxud *buluşdu* kimi oxumaq mümkündür. Başqa bir misal olaraq, قُولْ yazısı həm *qol*, həm də *qul* kimi, طُوزْ yazısı da *tuz* və ya *toz* kimi oxuna bilər və s. Doğrusunun nə olduğunu mətnə əsasən müəyyən edə bilirik. Qeyd edək ki, əlyazmada bəzən sükun işarəsi də zəmmə hərəkəsi kimi verildiyi üçün bəzi sözlərin düzgün oxunuşunda çətinlik törədir, qərarsızlığa səbəb olur.

Qeyd edim ki, bu saitlərin işarələnməsi əlyazmada ən çox qarışıqlığa səbəb olan amillərdəndir. Belə ki, bu səslərin müəyyən edilməsi təxmini xarakter daşıyır, yəni türk dillərində sözlərin başqa-başqa səs variantları olduğu üçün, əlyazmanı bu dillərdən hər hansı birinə uyğun şəkildə də transfoneliterasiya etmək mümkün olsa da, əsər Azərbaycan – Anadolu bölgəsində yazıldığı üçün təbii olaraq, Azərbaycan dili səs xüsusiyyətlərini əsas götürərək oxuyuruq.

Samitlər, əsasən, ərəb əlifbasına məxsus hərflərlə verilsə də, burada ərəb dilinə xas olmayan səsləri ifadə etmək üçün ərəb qrafikasında olmayan hərflərdən (پ p, چ ç) də istifadə olunduğunu görürük. Lakin bununla belə, əlyazmada ərəb dilində olmayan digər səs və hərfləri (g, ŋ (sağır nun) və j) ifadə etmək üçün İran qrafikasında olan xüsusi hərflərdən (گ, ژ) istifadə olunmamışdır. Onları ifadə etmək üçün elə ərəb qrafikasında olan adi kəf ك / ک və zey ز hərflərindən istifadə etmişlər. Ümumiyyətlə, əlyazmada samitlərin yazılışında müşahidə etdiyimiz qeyri-sabitliyə əsasən deyə bilərik ki, əsərin yazıldığı dövrdə İran qrafikasına hələ tam uyğunlaşılmamışdır.

C samiti, bir qayda olaraq, cim ج hərfilə yazılır. **Ç** səsini ifadə etmək üçün isə, چ çim hərfi mövcud olsa da (اَچُقْ açuq, چَغِرْدُمْ çağırdum, چَرِى çəri, چِرْكِنْ çirkin,

چُوزُلْدی çözüldi, چُقُرْ çuqur, çün چُونْ , suç سُوچ və b.), əlyazmada bu səsin daha çox ج cim hərfi ilə verildiyini görürük: چِقْدی (çıqdı), چِقَجَقْ (çıqıcaq), جـارَه (çarə), اِیچِنْدَهْ (içində), کَجْدی (keçdi), جُوقُدُرْ (çoqdur), قَمْجی (qamçı) və s.

Eyni hal **b / p, g / k** samitlərində də görünür. Belə ki, b samiti də, bir qayda olaraq, be ب hərfi ilə yazılır: بُو bu, بَاشْ baş, بَنْ bən və s. Bu işarə həm də pe səsini ifadə edir: طَبَرْلَرْ (taparlar), هَبْ (həp), قَبُو (qapu) və s. Bununla bərabər, pe səsini ifadə etmək üçün xüsusi pe پ hərfindən də istifadə olunduğunun şahidi oluruq: اَرْپَهْ arpa, پَا رَهْ para, پَكْ pək, قَپُو qapu və s.

Kəf (ك / ک / ڪ) hərfi əlyazmada eyni zamanda bir neçə səsi ifadə edir: g, k və sağır nun (ŋ): گَمِی gəmi, گَلْدِ gəldi, گِدَرْکَنْ gidərkən, گُورْدُكْ gördük, گَنْدُو kəndü, کَجْدی keçdi, دَکِز dəŋiz, صُكْرَهْ soŋra, سَنُكْ sənüŋ, بَكْ bəg / bəŋ, دِک dik- / diŋ- və s. Bunları da sözləri tanımaqla, eləcə də, mətn əsasında müəyyən etmək mümkün olur.

Mətndə "sağır nun"u (ك / ک / ڪ) "ŋ" işarəsi ilə vermişik. Sağır nun, bir qayda olaraq, türk mətnlərində və bir neçə xüsusi məqamlarda işlənmişdir. Bu məqamları əlyazma əsasında qeyd edək:

a) Türk mənşəli söz köklərində (Taŋrı, köŋül, əŋ, öŋ, soŋ, soŋra, biŋ, bəŋ, yeŋ, qalıŋ, dəŋiz; aŋ-, aŋla-, oŋ-, diŋ-, diŋlə- və s.);

b) I, II və III şəxs tək əvəzliklərinin, "yan" sözünün yönlük halında كا_ / ڪا_ (baŋa, saŋa, aŋa; yaŋa);

c) II şəxs tək və cəminin yönlük, yiyəlik, mənsubiyyət (sənüŋ nəŋdür?, sənüŋ ataŋ, sənüŋ bağruŋ, "iqrar ayıdaruz Taŋrınuŋ birliginə və sənüŋ peyğəmbərliğiŋə", sənüŋ ümmətüŋə, sənüŋ şəfaətüŋlə, həvəsüŋ, arqaŋda(n), arduŋda, evüŋdə, kəndüŋi // kəndözüŋi, sizüŋ gücüŋüz, dinüŋüz, əmanətüŋüz, toğırluquŋuz, aqibətüŋüz, ələüŋüzdə və s.);

d) Feilin əmr şəklində (virsəŋə, işləsəŋə, aluŋ, saqınuŋ, tanışuŋ, virüŋ, idüŋ, eyliŋ, diləŋ, diŋ (deyin), dimәŋ (deməyin), dirşürməŋ, yeməŋ, güniləməŋ, incitməŋ, ögrətməŋ, çoğaltmaŋ və s.);

e) Feilin şərt şəkli və feil şəkillərinin şərtində ("əgər işbu didügüz sözlərdə *gerçəksiŋüz*", "Əgər *tutarsaŋ*, yerüŋ suvarılur", *istəsəŋ, silkinsəŋ, qatlansaŋ, virsəŋ; gəldüŋsə*, nə *eylərsəŋ* eylə, nə *dilərsəŋüz*, hər nə *idərsəŋüz* və s.);

f) Şühudi keçmiş zaman şəkilçilərində və feil şəkillərinin hekayəsində (ərişdiŋ, uğraduŋmı, urdıŋ, öldürdüŋ, üləşdürdüŋ, alduğuŋa peşiman olduŋ, qoduŋ, xərc itmədüŋ, uyuduŋ, nitdüŋüz?; bulmazduŋ, razı olmazduŋ, qurtulurduŋ);

g) Habelə, -duq / -dük feili sifət şəkilçisi + II şəxs tək və cəm mənsubiyyət şəkilçisində (oquduğuŋ, üləşdürdügüŋ, virdüklərüŋ; didügüz);

h) Ümumiyyətlə, yiyəlik hal şəkilçisində كُ_ (taŋrınuŋ, dinüŋ, uçmağuŋ, uçmaq əhlinüŋ, kimüŋ, kimsənüŋ, bunlaruŋ, anuŋ, kişinüŋ, bitinüŋ, didügüzüŋ, kəfənüŋüzi və s.) işlənir.

Bu hal – əlyazmada "sağır nun"un saxlanması – sözləri tanımaqda bizə kömək edir. Belə ki, sözün qeyri-müəyyən təsirlik, yoxsa yiyəlik halda olması və ya mənsubiyyət bildirməsi "sağır nun"u (ك / ک / ڪ) ifadə edən işarə vasitəsilə

daha asan anlaşılır. Onu da qeyd edək ki, bəzən sağır nunun işlənməli olduğu yerdə yazılmadığını, daha doğrusu, adi nun hərfilə yazıldığını, bəzən də işlənməli olmadığı yerdə yazıldığını da görürük. Məsələn, adi n (ن) ilə yazılmalı olan çıxışlıq hal şəkilçisi 141-ci səhifədə sağır nunla verilmişdir; كِشيدَنْ *kişidən* yerinə كِشيدَكْ *kişidəŋ* yazılmışdır. Digər tərəfdən, sağır nunla (ك) yazılmalı olanlar nun (ن) ilə yazılmışdır. Məsələn, 6-cı səhifədə II şəxs tək mənsubiyyət şəkilçisi (كُوكُلُنْدَه *köŋlündə*), 16-cı və 92-ci səhifələrdə isə, II şəxs tək şühudi keçmiş zaman şəkilçisi (-düŋ) (كَلْمَدُنْ *gəlmədün*, اَرِشْدُنْ *ərişdün*). Bunu da çoxsaylı katib xətalarından biri kimi qeyd edirik. Onu da qeyd edək ki, "bu səs türk dilləri üçün müştərək olduğu halda, onun ayrı-ayrı türkdilli yazılardakı qrafik işarələri fərqli olmuşdur" [Adilov: 2002, s.161].

"Sağır nun"un göstərilən qrafik formalarından "نک" *ng* şəklinin daha qədim olduğu söylənilir ki, bu forma əlyazmada sadəcə iki sözdə – *biŋ* (بِنكْ) sözündə (eyni cümlədə iki dəfə): "Taŋrı-Təala Firdövs uçmağından bir öküz virdiki, qırq *biŋ* buynuzı var, qırq *biŋ* ayağı var" [s.12], bir də "sənüŋ" (سَنُونكْ) əvəzliyində: "Vəli kim, məqsudum oldır ki, bu aq saqal(ı) *sənünk* gevdəŋə *sür*əm şol *ümizə* ki oddan qurtula", – didi, ağladı [s. 175] qarşımıza çıxır.

Q samiti ilə bağlı qeyd edək ki, müasir dilimizdə söz ortasında və sonunda x ilə deyilib-yazılan milli sözlərimiz qaf (ق) hərfi ilə yazılmışdır: *bıraq-, yoq, yoqdur, qırq, qorqu, çıq-, çıqar-, çuqur* və s. Bu qəbildən sözlər və ərəb mənşəli *qövm, vəqt* kimi sözlərin tələffüzə uyğun şəkildə *qavim, vaqit* kimi yazılışı deməyə əsas verir ki, əlyazmada qaf hərfi bəzi sözlərdə müasir dilimizdə olduğu kimi cingiltili q deyil, onun kar qarşılığı olan k′ səsini ifadə etmişdir. Bu cür tələffüzün mövcudluğunu şühudi keçmiş zaman I şəxs cəmində şəxs sonluğunun bəzən ق qaf ilə deyil ك kəf ilə yazılması da təsdiqləyir: آيتْدُكْ ayıtduk [s.8 x3, 9, 104], چِقْدُكْ çıqduk [s.41], وَرْدُكْ varduk [s.82].

S və **t** səslərinin yazılışında ərəb qrafikasına məxsus incə və qalın variantların (س – ص \ ت – ط) hər birindən istifadə olunmuşdur. Bu zaman vahid prinsip gözlənilməsə də, əksərən, qalın saitli sözlərdə qalın, incə saitli sözlərdə isə, incə variantlardan istifadə olunmuşdur: تَكْرى Taŋrı, طُولْ tol-, دُوت dut- – طُوُت tut-, سَنْ sən, صَنْ / سَنْ san-, صَاغْ sağ, سُورْ sür-, صُورْ sor-, سُجى süci, صُوج / سُوچ (suç), سُيْلَه سُويْلَه / söylə-, صُون / صُن sun-, سُرُو sürü, صُوصَه susa- və s.

Y samiti iki qrafik formada yazılmışdır (nöqtəli və nöqtəsiz şəkildə: ى \ ي) və müstəqil y səsindən başqa, əvvəldə qeyd olunduğu kimi, ı / i sait səslərini ifadə etmək üçün istifadə olunmuşdur. Eləcə də و vav hərfi əlyazmada müstəqil **v** samit səsini bildirməklə yanaşı, həm də dodaqlanan o / u / ö / ü sait səslərini ifadə etmək üçün işlənmişdir.

Əlyazmada sadəcə bir dəfə işlənən اَزْدَرْهَا (əzdərha) sözündə ز ze hərfi, güman ki, **j** səsini ifadə etmişdir. Məlumdur ki, Türkiyə türkcəsində bu söz "ejderha", bizim dilimizdə isə, "əjdaha" kimi işlənməkdədir. Digər tərəfdən, əlyazmada samitlərin yazılışında sabitlik olmadığını, İran qrafikasına tam keçilmədiyini əvvəldə qeyd etdik.

“Keçmiş yüzilliklərin hər biri özünə xas səciyyəvi qrafik-orfoqrafik xüsusiyyətlərə yiyələnir. Bu da əsasən orfoqrafik sabitsizlikdən irəli gəlmişdir... Ərəb əlifbasının yazılı abidələrimizdə yaratdığı çətinliklərin imkan daxilində aradan qaldırılması, ayrı-ayrı sözlərin düzgün oxunması və mənalandırılması üçün hər bir abidənin qrafik-orfoqrafik xüsusiyyətlərinin öyrənilməsi olduqca zəruridir. Hər hansı bir dövrdə üzü köçürülmüş əlyazma kitabının qrafik-orfoqrafik xüsusiyyətləri həmin dövrdə mövcud olmuş imla qaydalarına tabe edilmişdir” [Şərifova: 2012, s.40]. Əsərin imla qaydaları və orfoqrafiyasına ümumi nəzər saldıqda orta əsr abidələrində müşahidə olunan qeyri-sabitliyin burada da özünü göstərdiyini görürük. Qeyri-sabitlik yalnız sait və samitlərin imlasında deyil, ümumiyyətlə nüsxənin bütün yazı üsulunda özünü göstərir. Orta əsrlərə aid digər Azərbaycan yazılı abidələrində olduğu kimi, burada da bir sıra türk mənşəli sözlər müxtəlif qrafik və fonetik variantlarda yazılmışdır: اَجِقْ / اَجيغْ (acıq-), اَجُوقْ / اَچُقْ (açuq), دَكُلْ / دَكِلْ (degül / degil), دِيرشور / دِيرشِر (dirşür- / dirşir-), دُوت // طُوُت (dut- // tut-), دُوز / دُزْ (düz-), اَيُو / اَيى (eyü / eyi), اَكْسُكْ / اَكْسِكْ (əksük / əksik), اِجكُوجى / اِجكِجى (içküci / içkici), صُوج / سُوچ (suç) və s. və i.

Habelə, şəkilçilərdəki qeyri-sabitlik diqqət çəkən xüsusiyyətlərdəndir. Belə ki, şəkilçilərin dodaq və damaq variantları əsər boyunca paralel şəkildə işlənmişdir və bunlar birləşdikləri söz kökləri ilə ahəng qanuna görə bəzən uyğunlaşır, bəzən uyğunlaşmır (oğlancuq / oğlancıq, böyüklük / böyüklik, dostluq / dostlıq, eylük / eylik, bəxillik بَخِلْ لِكْ / baxıllıq بَخِلْلِقْ). Məsələn, dörd variantlı -lıq, -lik, -luq, -lük şəkilçisinin əlyazmada dörd variantına da rast gəlinir (لِقْ / لِك / لُق / لُك), lakin buna rəğmən, bəzi sözlərdə ahəng qanununa uyğunluq gözlənilmir: *eylük, xoşnudlıq, yoxsullıq, sayrulıq, azğunlıq, yavuzlıq, dəlülik, qaraŋulıq, böyüklik, təkəbbürlik, şumlıq, dostlıq, tamulıq, tanuqlıq / tanıqlıq, toğrılıq, qadirlıq, xərclıq, münafiqlıq*. İsimlərdən sifət düzəldən şəkilçilərdən -lı[4] şəkilçisinin yalnız dodaq variantlarının (-lu, -lü) bir qrafik formada لُو (adlu, atlu, yazılu, borclu, qumlu, otlu, tonlu, qaftanlu, dəsturlu, nurlu, qutlu, bəxtlü, güssəlü, faidəlü, heybətlü, qüvvətlü, qiymətlü, kirlü, bəllü, sevgülü, təqsirlü, tənlü, örtülü, yüklü, erkəklü dişilü, yerlü,), -sız[4] şəkilçisinin də üç qrafik formada (سُوزْ / سُزْ / سِزْ), əsasən, dodaq variantlarının (*faidəsiz, dəstursız, sorusız; hisabsuz, issuz, ac susuz, zəhmətsüz, güssəsüz, tövbəsüz, gözsüz, öksüz*) işləndiyini görürük.

Əsas etibarilə, əsərin dilində söz köklərində (*artuq, ayruq, açuq, əksük, əsrük, qapu, satu, sınuq, tamu, tanuq, tapu, yavuz, yazuq; qaldur-, gətür-, geyür-* və s.) və şəkilçilərin çoxunun yazılışında dodaq variantı üstünlük təşkil edir. Yiyəlik hal, I-II şəxslərin tək və cəmində mənsubiyyət, I, II şəxslərin cəm, III şəxsin tək və cəmində əmr, I şəxs cəminin şəxs-xəbərlik şəkilçilərinin və b. yazılışı və oxunuşunda “u”, “ü” saitləri üstünlük təşkil edir. Məsələn, *kişinüŋ, bənüm, sənüŋ, sizüŋ, anuŋ (onun), anlaruŋ (onların); başum, evüm, düşmənlərimüz, işimüz, heybətümüz, qəhrümüz, yerüŋ, cümləŋüz, ələŋüz; sığınalum, varalum, alalum, istəsün, gəlsünlər, itsünlər, eyləməsün; mu’minlərüz, qıluruz, işlədürüz, dutaruz,*

ayıdaruz və s. Bu səslərin yazıda ifadəsi ya “vav” (و) hərfi ilə, ya da sadəcə hərfin üstündə “zammə işarəsi” (ُ) olmuşdur.

İndiki zamanın şəkilçisi -ur²/-r əlyazmada eyni zamanda qeyri-qəti gələcək zamanı da ifadə edir (*utanurum // utanurın, alur, ayıdur, çıqarur, varur, virür, oŋarur, irişür, qılınur, uyurlar, yalvarurlar* və s.). Və əksinə, qeyri-qəti gələcək zaman şəkilçisi -ar²/-r əlyazmada həm də indiki zamanı ifadə edir: *söylər, qorqar, qorqarlar, gidər, irər* və s.

Şühudi keçmiş zamanın, feil şəkillərinin hekayəsinin I və II şəxs tək və cəmində şəxs sonluqları, adətən, dodaq variantları ilə işlənir (eylədüm, girdüm, bildüm, didüm; gəldük, virdük, arturduq, sarduq, uğraduq, bildüŋ, qılduŋuz; sanurdum, sorardum, istərdüm, idərdük, eyləməzdük, qaçmazduq; binmişdüŋ), lakin bəzən damaq variantına da rast gəlirik (qırdım, eylədim, virdim, yarlığadım, yarat(ma)dıq, urdıŋ və s.). III şəxs tək və cəmdə isə şəxs sonluqlarının (-dı(lar) / -di(lər) دِی / دِلَر), demək olar ki, ancaq damaq variantı işlənmişdir (oldı / öldi, qopdı, sürdilər, döndilər və s.). Nəqli keçmiş zaman -mış⁴ şəkilçisinin də adətən, damaq variantı (-mış / -miş مِشْ) işlənsə də (oturmış, qopmış, urmış, düşmiş, ölmiş, ügütmiş və s.), burada da istisnalar olduğunu görürük (oturmuş, qopmuş, qonmuş, olmuşdur, ölmüş, ölmüşlərdən, dərilmüşlər).

Şəxs-xəbərlik şəkilçisi, adətən, dodaq variantındadır: دُرْ -dur / -dür (*sağmıdur, sağdur, varmıdur, vardur, yaqındur, iraqdur, kimdür, nədür, degildür, çobanıdur, bəkçisidür, gözindədür* və s.). Lakin burada da sabitlik olmadığını görürük: *nədir, əlimdədir, degildir, nəsnədir, lazımdır, gərəkdir, bəkçisidir, içindədir, bəlxidir, zahiddir* və s. Hətta bir neçə yerdə danışığa uyğun olaraq sondakı r hərfinin düşüb “-dı/-di” دِی kimi yazıldığına da şahid oluruq. Məsələn, “Həman xatirimdən keçdi: “Varsa, qazansa, xəlqdən diləməsə, yeg*di*”, – didüm” [s. 21]; Ayıtdum: “Ya Rəsulallahi, bu kişi ziyadə yaramaz kişi*di*, əlüŋüzdə əli neylər?!”. Ayıtdı: “Əvət, yaramaz kişi*di*, əmma Taŋrıdan şəfaət idəm, suçın diləyəm” [s. 99]; Ol ayıtdı həman: “Altı kişinüŋ qəbul*dı*” [s. 162]..

“Nüsxədə II şəxs şəkilçisi سَن *sən* şəklində verilmişdir. Lakin bəzən cığatay formasında i (ي) saiti göstərilməklə سین *sin*, bəzən də həmin sait hərəkə (kəsrə) vasitəsilə işarələnir: سِن ..” [Qəhrəmanov: 1970, s.24]. Məsələn, sən *kimsin?, sənsin, biləsin, aŋlıyasın, sanursın, yaradursın, əsirgəməzsin* və s.

Maraqlıdır ki, -ıncı, -inci sıra sayı şəkilçisi 80 və 90 saylarında -cı, -ci şəklində birbaşa kökə artırılmışdır. Belə ki, müasir ədəbi dilimizdə “səksəninci” və “doxsanıncı” şəklində olan sıra sayları əlyazmada, hər biri iki dəfə olmaqla, “sək(i)sənci” (سَکِسَنْجی) [s.145] və “toqsancı” (طُقْسَنْجی) [s.157] kimi yazılmışdır.

Əlyazmada orfoqrafik cəhətdən diqqət çəkən xüsusiyyətlərdən biri də bəzi şəkilçi, qoşma, ədat və bağlayıcıların, müasir ədəbi dilimizdən fərqli şəkildə, sözlərə ya bitişik, ya da ayrı yazılmasıdır. Məsələn, *ki* (کِهْ) // *kim* (کِمْ) bağlayıcısı çox vaxt sözlərə bitişik yazılır: هَرْکِمْکِهْ hər kimki, بِلْدُمْکِهِ bildümki, اَیْتْدُمْکِهِ ayıtdumki, دِلَدُمْکِهِ dilədümki, دِلَرِنْکِهِ dilərinki, صُورْدِیکه sordıki, دُوتْکِهِ dutki, نِچَکِه niçəki, نَکِهِ nəki, اُولْکِهِ olki, اُولْقُولْکِهْ olqulki // شُولْ قُولْکِمْ şol qulkim; نِتَکِمْ nitəkim // نِتَکِهِ nitəki // نِتَـهْ کِهِ nitə

ki, دِيكِمْ dikim (de ki), قَجَنْكِمْ / قَجَنْكِهِ qaçankim // قَجَنْكِهِ qaçanki, دَكُ ِلْكِمْ degülkim / degilkim və s.

Daxi / dəxi // da / də ədatının *bən, sən* və *ol* əvəzliklərinə bitişik yazıldığını görürük: بَنْدَه خی/ بَنْدَخی bəndəxi (sadəcə bir yerdə [s.163] ayrı yazılıb: بَنْ دَخِي bən dəxi) // بَنْدَه bəndə, سَنْدَاخی *səndaxi* // سَنْدَخی *səndəxi* // سَنْدَهْ می *səndə mi*, أُولْدَخی oldəxi // أُولْدَهْ olda. Qalan bütün hallarda ayrı yazılıb. Qeyd edək ki, *dəxi* ilə *də* 'nin birlikdə işləndiyi hallar da olur: سَنْدَ دَخی *səndə dəxi*. Nümunələrə əsasən deyə bilərik ki, bu sözdə *dəxi* ədatı da *də* 'yə bitişdirilmişdir, çünki *də* ayrı yazılanda sonda ه hey hərfi ilə yazılır. Habelə, əlyazmada *nə qədər, şol qədər, ol kişi* sözləri də bəzən bitişik yazılır: نَقَدَر // نَه قَدَرْ , شُولْ قَدَرْ / أُولْكِشی . أُولْ كِشی / شُولْقَدَرْ

Müasir durğu işarələrindən, demək olar ki, istifadə olunmayıb; vergül əvəzinə "və" وَ bağlayıcısından istifadə olunub. Sətirdən sətirə keçmə halları müşahidə edilir, lakin bunun üçün xüsusi işarədən istifadə olunmayıb: di-ləgi - دِ لَكی [s.4], وَارْ- دُمْ var-dum [s.106], أُولْمَا - سُونْلَرْ olma-sunlar, يَهْ – غَذَا ğəza-ya [s.128] və s.

Ənənəyə uyğun olaraq, sonrakı səhifənin ilk sözü əvvəlki səhifənin sonunda aşağı hissədə yazılmışdır: *vəl-işrunə* (s.41-42); *dükəlisin* (s.43-44), *qonşu* (s.51-52), *didi* (s.57-58), *nə yavaş* (s.139-140), *övrət* (s.149-150) və s. Hətta bir neçə sözdən ibarət ifadə (*səni və bəni* / s.21-22) və ya yeni sətrə keçən hissənin də qeyd olunduğunu görürük (əgləndür-*məyəm* / s.141-142) və s.

"Dilçi üçün tədqiq edilən əlyazma özü əsasdır, çünki bir qayda olaraq onu əlyazmanın məzmunu deyil, sözlərin yazılışı maraqlandırır və bu yazılışı təhlil etməklə dilçi dil faktlarını aşkara çıxarır" [Adilov: 2009, s.32]. "Müxtəlif yüzilliklərdə, ayrı-ayrı məktəblərdə və bölgələrdə yazılmış və ya köçürülmüş əlyazma abidələrinin qrafik-orfoqrafik xüsusiyyətlərinin araşdırılması tarixi fonetikanın öyrənilməsi baxımından böyük elmi əhəmiyyət kəsb etdiyi kimi, yazılı abidələrin müasir əlifbaya transfonoliterasiyası baxımından da praktiki əhəmiyyətə malikdir" [Şərifov: 1996, s.129].

Əsərin dil tarixini öyrənmək nöqteyi-nəzərindən xüsusi tədqiqat obyekti ola biləcək müxtəlif dövrlərdə ayrı-ayrı xəttat və katiblər tərəfindən üzü köçürülmüş əlyazma nüsxələrinin mühüm cəhəti aydın, səliqəli nəsx xətti ilə yazılması və hərəkəli olmasıdır. Bu müəlliflərin əsərləri müxtəlif ərazidə yaşayan, bir-birindən fərqli yazı və xətt üslubuna malik olan, ayrı-ayrı xəttatlıq məktəblərinə mənsub nasixlər tərəfindən köçürüldüyü üçün tələffüz və imla xüsusiyyətlərinə görə əsl müəllif dilindən fərqlənir. Eyni zamanda əlyazma nüsxələrinin imlasının öyrənilməsi dil tarixi üçün çox əhəmiyyətlidir. Çünki əlyazmalarının imla xüsusiyyətləri müəllifin öz dilindən fərqli olsa da, müəyyən dövr, müəyyən ərazi və sahə üçün səciyyəvi olur, o dövrün dil və imla xüsusiyyətlərini öyrənmək üçün faktik material verir. Deməli, əsərin imla xüsusiyyətlərindən danışdıqda müəllifin öz şəxsi imlası, onun tələffüzü haqqında deyil, məhz əlyazmasının xüsusiyyətləri barəsində fikir yürüdülür. Beləliklə, əsər nüsxənin yarandığı dövrün, yəni XIV əsr Azərbaycan-türk yazısının müəyyən ənənəyə malik imla xüsusiyyətlərini əks etdirən bir abidə kimi tədqiq olunur. Azərbaycan dili tarixi üçün böyük əhəmiyyətə

malik olan bu yazılı abidənin hərtərəfli öyrənilməsi orta əsrlərdə yazılı ədəbi dilin formalaşması problemlərinin həllində mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Adilov, Məmməd. *Azərbaycan paleoqrafiyası və tarixi orfoqrafiya məsələləri*. Bakı, 2002, 199 s.
2. Adilov, Məmməd. *Azərbaycan paleoqrafiyası*. Bakı, Elm, 2009, 224 s. // http://web2.anl.az:81/read/page.php?zoom=0&bibid=547174&pno=32
3. Efendioğlu, Süleyman – Sümbüllü, Yusuf Ziya. *Erzurumlu Mustafa Darir, Yüz Hadis Yüz Hikaye'si ve Yeni Nüshaları*. Türkiyat araştırmaları dergisi, 2012, №32, s.: 15-35.
4. Erkan, Mustafa. *"Darîr" Maddesi,* İslam Ansiklopedisi, TDV Yay., Cilt: 8, İstanbul, 1993.
5. Hacıyev, Tofiq. *Azərbaycan ədəbi dilinin tarixi*. I c., Bakı, Elm, 2012, 476 səh.
6. Qəhrəmanov, Cahangir. *Nəsimi "Divanı"nın leksikası*. Bakı, "Elm", 1970.
7. Nağısoylu, Möhsün. *XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüt-təbir" (filoloji-tekstoloji araşdırma, əsərdən parçalar)*. Bakı, Elm və təhsil, 2011.
8. Nağıyev, Möhsün. *XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (tekstoloji tədqiqi, tərcümə və dil xüsusiyyətləri)*, D.D. Bakı, 1994.
9. Özkan, Mustafa. *Eski Anadolu Türkçesi döneminde ortaya konan tercümelerin türk diline etkisi*. Dil ve edebiyat araştırmaları dergisi, sayı 3, kış 2011, 1-64, İstanbul.
10. Sarı, Mustafa. *Erzurumlu Darir, Yüz Hadis Yüz Hikaye; Türk dilinde art zamanlı değişmeler*. Ankara, Türk Dil Kurumu Yayınları, 2016.
11. Şərifov, Kamandar. *Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı*. B., "Örnək", 1996.
12. Şərifova, Aysel. *Ümmi İsanın "Mehri və Vəfa" məsnəvisinin paleoqrafik, orfoqrafik və leksikoloji tədqiqi*. Bakı, "Elm və təhsil", 2012, 250 s.
13. Yavuz, Kemal. *XIV. Yüzyıl Batı Türk Edebiyatı II: Anadolu Sahası Şair ve Yazarları.* – XIV.-XV. Yüzyıllar Türk Edebiyatı (2. Ünite, s. 48-50). Anadolu Üniversitesi, 2011.
14. Yıldırım, Selahattin – Yılmaz, Necdet. *Darîr Mustafa Efendi, 100 Hadis 100 Hikâye*. Darülhadis Yay., 2. Baskı, Erkam Matbaası, İstanbul, 2005.
15. Zərir, Mustafa. *Yüz hədis və yüz hekayə*. Süleymaniye Kütüphanesi, İzmir Kitaplığı, nr.108 (əlyazmanın fotosurəti).

GRAPHIC AND ORTHOGRAPHIC FEATURES OF THE WORK "HUNDRED HADITHS AND HUNDRED STORIES"

ABSTRACT

Studying the orthography of manuscript copies is of great importance for the history of the language. Although the orthographic features of manuscripts may differ from the author's own usage, they are characteristic of a specific period, region, and field, providing factual material for the study of the linguistic and orthographic traits of that era. The manuscript of the work serves as a remarkably rich and interesting source regarding its graphic and orthographic characteristics. In this study, we will discuss the distinctive and noteworthy paleographic features of the manuscript copy under examination. A comprehensive study of this written monument, which holds great significance for the history of the Azerbaijani language – is crucial for addressing issues surrounding the formation of the written literary language during the medieval period.

Key words: *Zarir, hadith, story, graphics, orthography, paleography*.

ГРАФИЧЕСКИЕ И ОРФОГРАФИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОИЗВЕДЕНИЯ «СТО ХАДИСОВ И СТО РАССКАЗ»

РЕЗЮМЕ

Изучение орфографии рукописных копий имеет огромное значение для истории языка. Хотя орфографические особенности рукописей отличаются от языка самого автора, они характерны для определенного периода, территории и сферы, предоставляя фактический материал для изучения языковых и орфографических особенностей того времени. Рукопись произведения является очень богатым и интересным источником с точки зрения графических и орфографических особенностей. В данном исследовании мы рассмотрим характерные и яркие палеографические особенности изученной нами копии. Комплексное изучение этого письменного памятника, имеющего большое значение для истории азербайджанского языка, имеет важное значение для решения проблем формирования письменного литературного языка в Средневековье.

Ключевые слова: *Зарир, хадис, рассказ, графика, орфография, палеография.*